Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların ən səxavətlisi idi və Cəbrail onunla Ramazanda görüşdüyü zaman ən səxavətli olduğu vaxtı idi

İbn Abbasdan (Allah ondan və atasından razı olsun) rəvayət edildiyinə görə, o, belə dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların ən səxavətlisi idi və Cəbrail onunla Ramazanda görüşdüyü zaman ən səxavətli olduğu vaxtı idi və Ramazanın hər gecəsi onunla görüşər və qarşılıqlı bir-birinə Quran oxuyardılar və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xeyirdə əsən küləkdən belə cömərd idi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanların ən səxavətlisi idi və Ramazan ayında səxavəti daha da artardı, belə ki, lazım olanı lazım olan şəxsə verirdi və səxavətinin artmasının səbəbi də iki şey idi: Birincisi: Cəbrail ilə (Allahın salamı onun üzərinə olsun) görüşməsi. Digər məsələ: Quranı qarşılıqlı oxuyaraq- təkrarlamaq, yəni bu onu əzbər oxumaqdır. Cəbrail (Allahın salamı onun üzərinə olsun) Qurandan nazil olan hər şeyi ona öyrədir və Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) daha səxavətli, daha çox xeyirxah olurdu və insanlara fayda verməkdə, Allahın yağış və rəhmətlə göndərdiyi gözəl küləkdən daha sürətli olurdu.

http://sunnah.global/hadeeth/az/show/6179